Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Layihənin istiqaməti:
"İctimai və dövlət maraqlarının müdafiəsi"

# Tarixçilərə də vəzifələrini xatırladan çəfakeş araşdırmaçı

## Böyük Britaniya muzeylərindəki türk və islam əsərləri haqqında bilmədiklərimiz...

**Biz, günümüzün türk ziyalıları... Hər bir türk xalqının əsərlərini öz əsərlərimiz kimi qəbul edəcəyik. Hər birindəki incəlikdən və zəriflikdən zövq alacağıq. Hər türk əsərini başqalarına tanıtmadan öncə özümüz tanımaq üçün cəhd edəcəyik.**

**Muhsin Kadıoğlu**

### I YAZI

Böyük Britaniya muzeylərində türk və islam dininə aid olan əsərlərinin araşdırılması, öyrənilməsi, bir çox maraqlı və əhəmiyyətli məsələlərin ortaya çıxarılmasında Türkiyənin tanınmış yazar, tədqiqatçı alim və türkçü ideoloq Muhsin Kadıoğlunun böyük rolu vardır. Dünya muzeylərində sərgilənən əsərlərimizi sadəcə, yalnız milli mədəniyyətin Qərbə inteqrasiyasında bir vasitə kimi qiymətləndirmək doğru olmaz. Bu əsərlər həm də öz milli-mənəvi dəyərlərimizi öyrənmək, təmsil olunduğumuz sənət nümunələrinin dünya tarixindəki yerini anlayaraq, qiymətləndirmək yoludur.

Muhsin Kadıoğlu təkcə Böyük Britaniyada deyil, dünyanın bir çox ölkələrinin məşhur muzeylərində qorunub saxlanılan türk və islam dininə aid əsərlərin tədqiqi sahəsində mühüm işlər görmüş və görməkdə davam edir.

Məlum olduğu kimi, Qərbin zəngin və möhtəşəm muzeylərindəki eksponatlar, eləcə də Şərqə, xüsusilə də islam Şərqinə aid nümunələr çox fərqli yollarla aparılmışdır. Bunların arasında qaçırılmış əsərlərə də təsadüf etmək mümkündür. Bütün bunları diqqətə alan Muhsin Kadıoğlu Qərb muzeylərini və o cümlədən, Böyük Britaniya sənət məbədlərini araşdırarkən, beş əsas məsələyə diqqət yetirmişdir:

**1.** Türk və islam əsərlərinin Qərb muzeylərinə hansı yollarla aparılmasını araşdırmaq.

**2.** Türk və islam əsərlərini araşdıraraq, müəyyən bir tədqiqat əsərində toplamaq və təqdim etmək.

**3.** Türk və islam dünyasına məxsus əsərlərin muzeylərdə hansı formada təqdim olunmasını, onlar haqqındakı məlumat və izahatların həqiqətlərlə nə dərəcədə səslənməsini müəyyən etmək.

**4.** Qərb müəlliflərinin əsərlərində türk və islam izlərini araşdırıb ortaya çıxarmaq, həmin əsərlərdə Şərq motivlərinin gerçəklərə uyğun olması, yaxud qərbçilik tendensiyasının hakim olmasını nəzərə çatdırmaq.

**5.** Ayrılıqda türk əsərlərinin öyrənmək, bəzən yanlış olaraq türk əsərlərinin digər ölkə və millətlərin eksponatları kimi təqdim olunmasına münasibət göstərmək.

**6.** İslam ölkələrinə məxsus əsərlərin siyahısını tərtib etmək.

Sözügedən əhəmiyyətli məsələlər Muhsin Kadıoğlunun türk və islam tarixinə, mədəniyyətinə yaxından bələd olması, rəssamlıq, memarlıq, dənizçilik, dulusçuluq, metal işləmə, keramika, xalçaçılıq, silah və döyüş sursatları, medalçılıq, ədəbiyyat və digər sahələri əhatə edən muzey nümunələrində türk və islam izlərini müəyyən edə bilməsi nəticəsində ərsəyə gəlmişdir. Yazarın öz sözləri burada tam yerinə düşür: "Muzey yaratmaq bir mədəniyyət olduğu kimi, onu gəzmək də bir mədəniyyətdir. Bu "görmək" ilə "baxmaq" arasındakı fərq kimidir. Bir çox insanlar muzeyləri gəzir və əsərlərə baxır. Bəziləri isə muzeydə əsərlərdəki detalları, incəlikləri görür. Tarixi əsərləri seyr etmək də belədir. Muzeylərdəki əsərlərə sadəcə baxan birisinizsə, siz baxmağa davam edin, mən isə "görənlərə" səslənirəm. Lakin "görmək" də kifayətdirmi? Gördüyünüz əsərləri adlandırmaq, mənalandırmaq və digər əsərlərlə əlaqələndirmək "yüksək kültür" tələb edir. Heç şübhəsiz ki, bunun birinci yolu da çox oxumaqdır. Bir qədər coğrafi, tarixi, mifoloji və sənət bilikləri sizi başqalarına görə bir neçə addım önə çıxaracaqdır".

"Avrupa Müzelerinde Türk, İslam Bilim Aygitlari" adlı e-pub kitabı Muhsin Kadıoğlunun gəzdiyi 17 Avropa ölkəsindəki muzeylərdə çəkdiyi rəsmləri və onlar haqqındakı şərhləri əhatə edən əhəmiyyətli əsərdir. Dünyanın 152 ölkəsində satılacaq həmin kitabın mədəniyyətimizin təbliği və dünyaya çatdırılmasında rolu əvəzsiz olacaqdır. Oxu-




cular çox yaxın zamanda bu əsərlə tanış olmaq imkanı əldə edəcəklər.

Muhsin Kadıoğlu'nun "İskoçya'da Türk İslam Eserleri" (2015), "Edinburgh Gezi Rehberi" (2015), "Glasgow Gezi rehberi" (2015), "Stirling Gezi Rehberi" (2015) "Aberdeen Gezi Rehberi" (2015) kimi kitablarında da Böyük Britaniyanın muzey və tarixi məkanlarındakı türk və islam əsərləri geniş şəkildə təqdim olunmuş, onlar haqqında ətraflı məlumatlar verilmiş və yazarın fikirləri öz əksini tapmışdır. Bu kitablarda toplanılmış şəkillər, heç bir ayrı-seçkilik olmadan, bütün türk mədəniyyətini və islam Şərqini əhatə edir.

Bildiyimiz kimi, islam Şərqi daim müxtəlif sülalələrin hakimiyyətə gəlməsi, mədəniyyətdə türk, fars və ərəb elementlərinin ön plana keçməsi ilə zəngin və keşməkeşli tarix yaşamışdır. Dünya tarixi və mədəniyyətinin ən qədim nümunələrindən biri kimi türk mədəniyyəti bütün mərhələlərdə misilsiz sənət əsərləri ilə seçilmişdir. Təbii ki, müasir Şərq ölkələrinin coğrafi ərazisi XX əsrə qədərki ərazi ilə üst-üstə düşmür. Bu da muzeylərdəki türk eksponatlarının sərgilənməsi zamanı hansı ölkəyə mənsub olması məsələsində müəyyən problemlər doğurmuşdur.

Muhsin Kadıoğlunun kitablarının da ən mühüm əhəmiyyəti həmin kontekstdə meydana çıxır. Belə ki, müəllif muzey nümunələrini araşdırarkən, onların yaradıldığı dövrün tarixi ərazisi və şərtlərinə diqqət yetirir, həmin tarixi mərhələdə hansı dövlətin həmin coğrafi məkanda mövcud olmasını, hansı mədəniyyətin üstünlük təşkil etdiyini, həmin əsərləri yetişdirən insanların milli mənşəyinin, ənənələrinin əsərlərdə necə təzahür olunduğunu mifoloji ünsürləri araşdırmaq yolu ilə oxuculara çatdırır.

Yazarla söhbətimizdə o, çox maraqlı şəkildə muzey gəzmək mədəniyyətini, oradakı türk əsərlərinin aşkarlanmasını yollarını açıqladı: "Qlazqodakı muzeyləri gəzərkən, orada doktorantura təhsili alan bir neçə gənci də dəvət etdim. Muzeydəki əsərlərin məlumat kartında "İsfahan, XII əsr İran", Yozqat, XII əsr Anadolu, Kiyev, XII əsr Ukrayna" kimi qeydləri oxuyuruq. Doktorantura səviyyəsində olsalar da, gənclərin əsərləri anlaya bilmədiklərini gördüm. Onlara "siz üzərində "İsfahan, XII əsr İran", Yozqat, XII əsr Anadolu, Kiyev, XII əsr Ukrayna" qeydləri yazılmış əsərləri qeyri-türk əsərləri kimi qəbul etməyin" dedim. Gənclərdən birinin "siz də hər bir əsəri türklərə aid etmək istəyirsiniz" sözlərinə də Muhsin Kadıoğlu tarixi həqiqətlərə dayanaraq məntiqli bir cavab vermişdir: "Bizim millətimizin başqasına aid əsərləri mənimsəməsinə ehtiyacı yoxdur. Tarix boyu dəfələrlə böyük və uzun zaman davam edən imperatorluqlar qurmuş türk milləti hər sahədə bənzərsiz əsərlər yaratmışdır. Siz bu günün coğrafiyasına görə düşünürsünüz. Bunlar türk əsərləridir. Çünki həmin tarixlərdə İranda Səlcuq, Ukraynada Kuman, Yozqatda, Anadoluda Səlcuq (Rum) imperatorluqları hakimiyyətdə idi".

İstər İspaniyada islam izlərinin meydana çıxarılması, istər Avropada Osmanlı mədəniyyətinin nümunələri olaraq, türk motivlərinin aşkarlanması, istərsə də İran adı ilə təqdim olunmuş incəsənət əsərlərinin türk mənsubiyyətinin müəyyənləşdirilməsi Muhsin Kadıoğlunun Böyük Britaniya muzeyləri ilə bağlı yazdığı kitabların ana xəttidir.

Muzeylər məlum olduğu kimi, dünya mədəniyyətinin çox müxtəlif dövrlərə və xalqlara aid çeşidli sənət nümunələrini təqdim edir. Bu baxımdan da həmin önəmli məkanlardakı türk və islam əsərlərinin öyrənilməsi eksponatlarımıza dünya mədəniyyəti kontekstində baxmağa, onların yerini daha qlo-



Bakı xalçası

bal anlamda dəyərləndirməyə imkan verir. Eyni zamanda, bu araşdırmalar bizə Qərb dünyasına öz təsirini göstərən milli və mənəvi mədəniyyət nümunələrimizin varlığını təsdiq etməyə şərait yaradır.

Qərb muzeylərində araşdırmalar aparan Muhsin Kadıoğlu rəssamlıq əsərlərində Qərb sənətkarlarının türk tarixi və mədəniyyətinin möhtəşəm nümunələrinə istinad etdiklərini, onları öz qəhrəmanlarına çevirdiklərini qürur hissi ilə qeyd edir. Muhsin Kadıoğlu tarixi qaynaqlardan gələn fikirləri öz şəxsi təcrübəsində rastlaşdığı nümunələr və tədqiqatlar nəticəsində bir daha təsdiq



■ Bəsirə ƏZİZƏLİYEVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent

edərək, o qənaətə gəlir ki, Qərbi Avropada türk sənəti və mədəniyyəti, xüsusilə, XVI əsrdən XVIII əsrə qədər böyük təsir qüvvəsinə sahib olmuşdur. Qərbli qadın və kişilər türk məhsullarına, incəsənətinə, musiqisinə, memarlığına heyranlıqla yanaşmışlar. Bu xalqlar içərisində Muhsin Kadıoğlu fransızların xüsusi seçildiyini də diqqətə çatdırır.

Muhsin Kadıoğlunun 2016-cı ildə e-pub olaraq yayınladığı "Türk Modasıyla Giyinen Batılı Meşhur Kadınlar" ("Türk modası ilə geyinən məşhur Qərb qadınları") kitabı türk qadınlarının qürurla oxuyacaqları və Qərb dünyasındakı insanlara tövsiyə edə biləcəkləri möhtəşəm bir kitabdır. Araşdırmaçı yazar başda Böyük Britaniya olmaqla, gəzdiyi bütün dünya ölkələri muzeylərində türk modası ilə geyinən Qərb qadınlarının portretlərinin şəklini çəkərək, bir yerə toplamışdır. Bu rəsmlər geyim incəsənəti baxımından da çox əhəmiyyətlidir. Çünki burada çox qədim dövrlərə aid türk qiyafətlərini detallarına qədər araşdırmaq, onlardakı sənət incəliklərini izləmək mümkündür. Muhsin Kadıoğlu, haqlı olaraq düşünür ki, həmin nümunə və onlar haqqında yazılan məlumatlar türk kültür və mədəniyyətinə aid bir çox izləri gələcəyə ötürəcəkdir. Elə yazarın kitabının milli tariximizdə rolu da onun gələcək nəsillərə qiymətli bir kolleksiya təqdim etməsidir.

Muhsin Kadıoğlunun "Türk modası ilə geyinən məşhur Qərb qadınları" kitabında italyan, fransız, holland, ingilis, irland, ispan və digər Avropa xalqları rəssamlarının türk dəbi ilə geyinən qadın portretləri təqdim edilmişdir.

Bu sənət əsərləri kitabın nə qədər geniş əhatəyə malik, müəllifinin Qərb incəsənətinə, rəssamlıq sənətinə yaxından bələd olmasından, türk tarixi və mədəniyyətinə göstərdiyi fədakar xidmətdən xəbər verir. Təbii ki, bu kitab oxuculara bir tərəfdən türk kültürü və Qərb mədəniyyəti haqqında məlumat verir, Şərq və Qərb dünyasının qarşılıqlı mədəni əlaqələrinin nümunələrini təqdim edir, türk insanının öz keçmişi ilə qürur duymasını göstərir, digər tərəfdən isə Qərb muzeylərində türk izlərini toplu olaraq göstərməklə, oxucuları istiqamətləndirir, onlara bələdçilik edir. Muhsin Kadıoğlunun muzeylə bağlı kitablarından tarixi faktlar və onlara Qərb dünyasının münasibətini öyrənmək baxımından da maraqlı məlumatlar almaq mümkündür. Bəzən hətta tarixi mənbələrdə geniş şəkildə yer almayan hadisələri əks etdirən əsərlərə daha çox diqqət yetirən yazar, tarixçilərin də vəzifələrini onlara xatırlatmış olur.

*Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.*